*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2023, №3* *ISSN: 2664-5432*
*Səhifə: 135-141*
*http://doi.org/10.59849/2664-5432.2023.3.135*

**REYHAN HƏBİBLİ***

# QARABAĞ HİDRONİMLƏRİNİN NOMİNASİYA XÜSUSİYYƏTLƏRİ
## (Şuşa hidronimləri əsasında)

### XÜLASƏ

Məqalədə Qarabağ hidronimlərinin semantik xüsusiyyətlərindən bəhs olunur. Əsas məqsəd su obyektlərinin nominasiya prinsiplərini müəyyən etməkdir. Tədqiqat materialı göstərir ki, hidronimləri araşdırmaqla ərazinin təbii-coğrafi landşaftını, milli-etnoqrafik xüsusiyyətləri təhlil etmək mümkündür. Müəyyən edilir ki, Qarabağ hidronimlərində əhalinin həyat tərzi, dünyagörüşü, fəaliyyəti, həmçinin ərazinin flora və faunasının xarakterik cəhətləri öz əksini tapır. Xüsusilə qeyd edilir ki, su obyektlərinin bütün fiziki-coğrafi xüsusiyyətləri (suyun axın sürəti, rəngi, dadı, iyi, çayın mənbəyinin xarakteri, sahillərdə bitki örtüyü, su hövzəsində yaşayan quşlar, balıqlar və s.) adlarda əks olunur. Aparılan araşdırma Qarabağ, xüsusən Şuşa hidronimiyasının ümumi mənzərəsini, hidronimlərin leksik-semantik təhlilini təqdim edir. Alınmış nəticələr Qarabağ hidronimlərinin struktur-sözyaratma xarakteristikasının gələcəkdə daha dərindən öyrənilməsinə kömək edəcəkdir.

**Açar sözlər:** *toponimika, hidronimiya, hidronim, Qarabağ, Şuşa, Azərbaycan toponimik sistemi*

## Giriş

İnsanlar ta qədimlərdən coğrafi adlarla maraqlanırlar. Qədim mənbələrdə, tarixçi və coğrafiyaçıların əsərlərində müxtəlif toponimlərin izahına dair məlumat əldə etmək mümkündür. Müasir dövrdə də yer adlarına dair məlumatlar insanların coğrafi təsəvvürlərinin genişlənməsinə kömək edir. Hər hansı bir ərazidə hidronimləri öyrənməklə xalqın tarixi, coğrafiyası, etnoqrafiyasına aid fakt və hadisələri aşkar etmək mümkündür. Hidronimlər digər coğrafi obyekt adlarından daha qədim hesab olunduğundan onların tədqiqi böyük elmi-nəzəri və praktik əhəmiyyət daşıyır. Bunun səbəbləri aşağıdakılardır:

1.Suya və qidaya tələbat insanları su hövzələrinin kənarında məskunlaşmağa vadar etmişdir;

2.Su obyektəri təbbi maneə olaraq müdafiə funksiyası daşımışdır;

3.Bu obyektlər həmçinin ticarət-nəqliyyat yolları kimi xidmət göstərmişdir.

Hidronimlər su obyektlərini adlandırmaqla bərabər, milli adət-ənənələri, xalqın həyat tərzinin xüsusiyyətlərini əks etdirir. Ərazinin təbii-coğrafi əlamətləri, flora və faunanın xüsusiyyətləri, habelə regionun qədim əhalisinin praktik fəaliyyəti, onların təfəkkürü, dünyaya baxışları hidronimlərdə də təcəssüm olunur. Bununla da hidronimlər linqvistik və ekstralinqvistik informasiyanı özündə birləşdirən vahidlər kimi diqqəti cəlb edir.

Hər coğrafi obyektin öz əlamət və xüsusiyyətləri var ki, onu başqalarından fərqləndirir. Adlandırma zamanı bu meyarlar nəzərə alınır. Ona görə də çox vaxt kommunikasiya prosesində təsəvvürümüzdə həmin obyektin obrazı canlanır və onu müəyyən assosiativ parametrlərlə uyğunlaşdırır. Su obyektlərinin adları elə seçilir ki, ətraf mühitin xüsusiyyətini göstərən ən parlaq əlaməti əks etdirsin. Dəniz və okeanlar, çay və göllər, bulaqlar, kiçik çaylar, bataqlıqlar, buzlaqlar öz fiziki-coğrafi xarakteristikalarına görə müxtəlifdir. Onların bü-

* Bakı Dövlət Universiteti, Azərbaycan dilçiliyi kafedrasının dosenti, filologiya elmləri doktoru, Email*:* *rhabibli@bsu.edu.az*

tün fiziki-coğrafi xüsusiyyətləri (suyun axın sürəti, rəngi, dadı, iyi, çayın mənbəyinin xarakteri, sahillərdə bitki örtüyü, su hövzəsində yaşayan quşlar, balıqlar və s.) adlarda əks olunur.

Bütün hidronimlər də digər onomastik vahidlər kimi leksik vahidlərdir. Bu baxımdan hər bir dildə hidronimlərin əmələ gəlməsi müəyyən qanunauyğunluqlara əsaslanır. Onlar milli dilin söz yaradıcılığı üsulları ilə yaranır. Hidronimlərin qədimliyi, bir çox minilliklər boyu mövcud olması onların semantik xüsusiyyətlərinin araşdırılmasında əhəmiyyətlidir. Bundan əlavə, hidronimlərin təbii-coğrafi əlamətlərlə bağlılığı adların semantikasında da üzə çıxır. Müəyyən dilə mənsub hidronimlərin əmələ gəlməsi həmin dilin söz yaradıcılığı normasına uyğun baş verir. Coğrafi adların dil daşıyıcılarından asılılığı burdan gəlir.

Toponimik araşdırmalar zamanı ənənəvi toponimik linqvistik metodlar və coğrafi metod tətbiq olunur, kartoqrafik və ekspedisiya materiallarından istifadə edilir. Bu zaman ətrafdakı fiziki-coğrafi landşaftın, çay və göllərin morfoloji və hidrometirk xarakteristikasının öyrənilməsinə xüsusi diqqət yetirilir.

Ərazinin qədim hidronimiyasının uzun müddət ərzində öyrənilməsi su obyektlərinin adlandırma qanunauyğunluqlarını müəyyənləşdirməyə imkan verir. Qarabağ hidronimlərinin öyrənilməsi də bu baxımdan əhəmiyyətlidir. Bu məqaləmizdə Şuşa hidronimlərindən bəhs edəcəyik.

**Şuşa hidronimlərinin semantik qrupları**

Azərbaycan ərazisi su mənbələri ilə zəngindir. Toponimik tədqiqatlar zamanı hər hansı bir bölgə hidronimlərinin meydan çıxma yollarının, səbəblərinin öyrənilməsi böyük elmi əhəmiyyətə malikdir. “Bu və ya digər yarımsistemdə birləşən konkret coğrafi adların yaranma və formalaşmasında Azərbaycan coğrafi landşaftını əks etdirən coğrafi nomenlər və əvvəlcədən mövcud olan xüsusi adlar və dilin ümumi leksik vahidləri həlledici rol oynayır. Hidronimlər də məhz bu yolla, daha doğrusu, ilkin etnonim, antroponim, oykonim, oronim, fitonim, zoonim və digər leksik vahidlərin köməyi ilə yaradılır” [Əhmədov: 1991, s.214]. Hidronimlərin yaranma və formalaşması su obyektlərinin təbii və süni olmasından da asılıdır. Təbii su obyektlərinin adları suyun rəngini, sürət və istiqamətini, həcm və ölçüsünü, temperaturunu, dadını və s. bildirən sözlərdən, süni obyektlərin adları isə obyekt sahibinin, kəşf edənin adından əmələ gəlir. Həmçinin su obyektinin ətrafında məskunlaşmış insanların, çox vaxt müəyyən etnosların adları və ya yaxınlıqdakı başqa obyektlərin adları hidronimlərin əmələ gəlməsində iştirak edir. Eyni zamanda, hidronimlər bir sıra toponimlərin yaranmasında əsas mənbə rolunu oynayır.

Hidronimik sistemi təşkil edən adlar yaranma dövrünə və dil mənsubiyyətinə görə müxtəlifdir. Araşdırmalar göstərir ki, Azərbaycan hidronimik sistemində əksər hidronimlər türk mənşəli adlardır. Qarabağ ərazisində türk hidronimiyası tarixən formalaşmışdır. Bəzi hidronimlər ilkin semantik strukturunu itirmiş və yenisini əldə etmiş, bəziləri isə mühafizə edib saxlamışdır. Amma sözün əsas hissəsi nəsildən nəslə keçməkdədir.

Qarabağın toponimik sisteminin ayrılmaz tərkib hissəsi olan Şuşa hidronimləri müxtəlif mürəkkəb tarixi və ekstralinqvistik faktorların təsiri altında uzun müddət ərzində formalaşmışdır. Buradakı su obyektlərinin adları, eyni zamanda, təbii abidlərdir. Məlum olduğu kimi, bölgənin ərazisi öz landşaftı, nadir heyvan və bitki növləri ilə seçilir. Buna görə də ərazi hidronimləri dilçilk, coğrafiya, tarix, etnoqrafiya üçün dəyərli mənbədir.

Azərbaycanın mədəniyyət paytaxtı sayılan Şuşa şəhəri milli memarlığın və Orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsidir. Şuşa həm də təbii gözəllikləri ilə məşhur bir yerdir.

Azərbaycanın milli-mənəvi dəyərlərini və musiqi ənənələrini daima yaşadan Şuşa mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təşəkkül tapanadək zəngin yol keçib. O, Qarabağ xanlığının mərkəzi kimi Azərbaycan xalqının həyatında özünəməxsus rol oynamışdır. Şuşa dünyada Azərbaycan muğamının beşiyi kimi də tanınır.

Məlumdur ki, hidronimlər keçmişin birbaşa şahidləridir, bir növ, əks-sədasıdır, ən qiymətli tarixi mənbələr arasında onların özünəməxsus yeri var. Yer adları həm adlandırılan obyektin reallığını əks etdirir, həm də ekstralinqvistik faktorların inikasıdır.

Hidronimlərin tərkibində əksər hallarda coğrafi terminlər olur. Bu terminlərə bulaq, göl, su, boğaz, şor, arx, qaynar, nohur, çay, çeşmə, axmaz, ovdan və s. sözləri aid etmək olar. Onların hidroobyektlərin nominasiyasında fəal iştirak edir: Ağçay, Göygöl, Küraxmazı, Nohurgöl, Pirşağı ovdanı və s. Məsələn, "bulaq" sözü mürəkkəb toponimlərdə çox rast gəlinir və xüsusi adın ikinci komponenti olur. Bu sözün iştirakı ilə nəinki hidronimlər, eyni zamanda, çoxlu oykonimlər də yaranır: Qarabulaq, Ağbulaq, Daşbulaq, Xanbulaq və s. M.İ.İslamov yazır ki, bulaq sözünün iştirakı ilə düzələn yer adlarının bir çoxuna Azərbaycanın müxtəlif rayonlarında rast gəlmək mümkündür, bir qismi isə təkcə bir rayonda işlənir [İslamov: 1990, s.92].

Şuşa şəhəri həm də bulaq çeşmə və ovdanları ilə məşhur olmuşdur. Məsələn: Gövhər ağa bulağı, Mehralı bəyin bulağı, Meydan bulağı, İsa bulağı, Saxsı bulaq, Turşsu, Şorbulaq, Ovdan bulağı, Səkili bulaq, Daşaltı bulağı, Soyuqbulaq, Əjdaha bulağı, Yusifli bulağı, Dəvəbatıran, Fındıqlı və s. [Bax: Şuşanın bulaqları da bir tarixdir].

Tarixi faktlar göstərir ki, Şuşada hər məhəllənin öz bulağı olub. Bulaqlar, adətən, yerləşdiyi məhəllənin adını əks etdirirdi. Məsələn:

**Meydan bulağı** – Meydanın mərkəzində yerləşirdi. Meydan Şuşa şəhərinin əsas meydanıdır.

**Xoca Mərcanlı bulağı** – eyniadlı məhəllədə yerləşirdi. Bulaq XVIII əsrdə tikilib.

**Seyidli bulağı** – Seyidli məhəlləsində yerləşirdi. XIX əsrin 80-ci illərinə aiddir.

**Köçərli bulağı** – Şuşa şəhərinin tarixi Köçərli məhəlləsində yerləşdiyi üçün belə adlanır.

Bəzi qədim bulaqlar onları çəkdirən şəxslərin adı ilə bağlıdır. Bunlara sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın çəkdirdiyi Xan qızı bulağını, Mehmandarovların çəkdirdiyi Mehmandarov bulağını misal göstərmək olar.

Nümunələrdən göründüyü kimi, bulaq adlarının çoxu "bulaq" komponentli mürəkkəb hidronimlərdir, başqa sözlə, coğrafi nomenlidir.

Tərkibində coğrafi termin olan hidronimlər transtoponimləşmə prosesində meydana çıxan təkrar nominasiya vahidlərinə aiddir. Yəni su obyektləri yaxınlıqdakı dağ, zirvə, təpə, dərə və s. adları ilə adlanır. Coğrafi terminlərin toponimlərin tərkibində tez-tez rast gəlinməsi həm də bununla bağlıdır. Məsələn:

**Daşaltı çayı** – Şuşa rayonu ərazisindən axan çay. Bu çay, ərazisindən axdığı kəndin adı ilə əlaqədar olaraq Daşaltı adlandırılmışdır [Bax: Tapdıqoğlu: 2003, s.60]. Daşaltı "qayaaltı" mənasında işlənir. Daşaltı cayı spesifik hidronim sayılır. Obyektin coğrafi mövqeyinə görə meydana çıxmışdır.

Şuşa hidronimlərinin aşağıdakı semantik qruplarını göstərə bilərik:

**1)Fiziki-coğrafi xüsusiyyətlər və xarakteristikalar əks olunan hidronimlər.**

Qruntun xarakterini ifadə edən hidronimlər:

**Daşlı bulaq** – Şuşanın Quşçular kəndində qeydə alınmış hidronimdir. Bulağın yeri daşlı, qayalı olduğu üçün toponim belə adı almışdır. Daşlı bulaq toponiminin mənası "daşlı yerdən çıxan bulaq" deməkdir [Tapdıqoğlu: 2003, s.61].

Suyun dadını, qoxusunu, tərkibini göstərən hidronimlər:

**Turşsu mineral bulaqları** – suyunun tamı turşməzə olduğu üçün bulağın suyu belə adlanmışdır [Tapdıqoğlu: 2003, s.160]. Suyu faydalı mikroelementlərlə, əsasən, karbon qazı, hidrogen-karbonad, maqnezium, natruim, kalsiumla zəngindir.

**Dəmir bulaq** – böyük mineral su mənbəyidir. "Dəmir bulağın suyu qazlıdır. Bu suda dəmir qarışığı olduğundan "Dəmir su" adlanır" [Şuşanın bulaqları və müalicəvi suları].

**Şorbulaq** – suyu şor olduğundan bulaq belə adlanırdı [Tapdıqoğlu: 2003, s.139].

**Qotur bulağı** – İlin bütün fəsillərində soyuq və duru olan bulağın suyunun müalicəvi əhəmiyyəti var. Qotur xəstəliyinin dərmanı olduğuna görə ona bu ad verilib [https://web.archive.org/web/20220105111208/https://portal.azertag.az/az/node/20268]. Bulağın suyu payız fəslinin əvvəllərində və qış aylarında quruyur. Bu isə təbiətin hələ təbiətin mənası hələ müəyyən edilməmiş möcüzələrindəndir [https://az.wikipedia.org/wiki/Qotur_bula%C4%9F%C4%B1_(%C5%9Eu%C5%9Fa].

Suyun keyfiyyəti ilə bağlı olan hidronimlər:

**Ağçay** – çaya ad suyunun keyfiyyətinə, insan tərəfindən içməyə yararlı olmasına görə verilmişdir [İsmayılova: 1995, s.113].

Su obyektinin həcmini, böyüklüyünü bildirən hidronimlər:

**Uzundərəsu** – Şuşa və Xocalı rayonnları ərazisində çay. Hidronim *Uzundərə* (eyniadlı çay dərəsinin adı) və *su* (çay) komponentlərindən düzləib, çay dərəsinin ölçüsünü ifadə edir [Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: 2007, II c., s.257].

**Girgican** – Şuşa rayonu ərazisində çay. Hidronim gir (keçilməsi çətin olan, burulğan) və gican (suyun dərin yeri) komponentlərindən düzəlib, "dərin və ya burulğanlı çay" deməkdir [Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: 2007, I c., s.203].

**Turşsu** – spesifik hidronimdir. Çay adıdır. Turşsu mualicə keyfiyyətli mineral bulaqların yaxınlığından axdığına gorə belə adlanmışdır [Bax: Qarabağlı: 2008, s.367].

Suyun axma sürətini, rejimini göstərən hidronimlər:

**Şırlan** – Şuşa rayonunda mineral bulaq. Mineral bulağa ad axma xüsusiyyətinə görə, yəni şır-şır axdığına görə verilmişdir suyun rejiminə (şırıltı ilə tökülməsinə) [İsmayılova: 1995, s.123]. Şırlan mineral suyu Şuşa şəhərindən 18 kilometr qərbdə Sarıbaba dağının ətəyində çıxan üç bulağın ümumi adıdır, karbonadlıdır. Temperaturunun aşağı olması və tərkibində maqneziumlu komponentlərin çoxluğu ilə seçilir.

**2) Tərkibində antroponimlər olan hidronimlər.** Qeyd etdiyimiz kimi, Şuşada və onun ətrafında olan bulaqlar onları çəkdirən şəxslərin adı ilə bağlı olmuşdur. Beləliklə də, hidronimik sistemdə antropohidronimlər meydana çıxmışdır:

**Tofiq bulağı** – Malıbəyli kəndində qeydə alınmışdır. Bulağın belə adlanması onun qurucusu olan Malıbəyli kənd sakini Tofiq Zeynalovun adı ilə əlaqədardır [Tapdıqoğlu: 2003, s.158].

**İsa bulağı** – Şuşa rayonu ərazisində bulaq. Yerli məlumata görə, İsa bulağı XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı bir nəfər biçinçinin adı ilə bağlı olaraq belə adlanmışdır [Tapdıqoğlu: 2003, s.84]. Aydın Qarabağlı bu hidronimi "Qarabağın ən qədim (bəlkə də Qafqaz Albaniyasında xristianlığın yayılma dövründən mövcuddur) bulaq adların-

dan biri" hesab edir. Tədqiqatçının fikrincə, "Albaniyada xristian dini - Tək Allahlılıq qəbul olunanda İsa peyğəmbərin adı hər yerdə əziz tutulardı. Qədim ənənəyə görə bulaq çəkmək, insanlara su vermək öncə dini xadimlərə ehsan, savab sayılarmış. Bu məqsədlə Qarabağın ən saf və şəffaf sulu bulağı İsa peyğəmbərin adıyla adlandırılmışdır" [Qarabağlı: 2008, s.367-368].

**3) Tərkibində zoonimlər olan hidronimlər:**

**Ceyran bulağı** – Malıbəyli kəndi yaxınlığında olan bulaq. Hidronimin yaranması rəvayətlə bağlıdır [Tapdıqoğlu: 2003, s.50].

**4) Tərkibində fitonimlər olan hidronimlər:**

**Fındıqlı göl** – Şuşa rayonu ərazisində qeydə alınan Fındıqlı göl hidronimi gölün kənarında fındıq ağaclarının çox olması ilə bağlıdır [Tapdıqoğlu: 2003, s.69].

**Çinar bulağı** – Malıbəyli kəndində, Çala daş adlanan yerin yaxınlığında, qoşa çinarın dibində qayadan süzülən bulaq. Bulaq yaxınlığındakı çinar bitki cinsinin adı ilə adlandırılmışdır [Tapdıqoğlu: 2003, s.57].

**5) Tərkibində toponimlər olan hidronimlər:**

**Zarıslı çayı** – Şuşa və qismən də Xocalı rayonları ərazisində axan çay. Zarıslı kəndinin adı ilə əlaqədardır. Zar qatı etiqad edənlərə görə Allahın adıdır, ıs komponenti "el" mənasındadır [Tapdıqoğlu: 2003, s.165]. A.Qarabağlı bu hidronimi etnohidronim hesab edir, zarıs türk tayfasının adından əmələ gəldiyini bildirir [Qarabağlı: 2008, s.366]. Başqa bir fikrə görə, "hidronimin sarısu adının monqol dilinin təsiri ilə dəyişmiş variantı olması ehtimal edilir" [Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: 2007, II c., s.292];

**Quşçular çayı** – çay keçmişdə yaxınlıqdakı Quşçular kəndinin adı ilə əlaqədar adlandırılmışdır. Bu toponim türkdilli quşçu tayfasının adı ilə bağlıdır [Tapdıqoğlu: 2003, s.113];

**Mamayı bulağı** – Mamayı Şuşada yerləşən yuxarı məhəllərdən birinin adıdır. Bulaq da bu adla bağlıdır [Tapdıqoğlu: 2003, s.119].

**6) Tərkibində etnonimlər olan hidronimlər.** Azərbaycan ərazisi, o cümlədən Qarabağ qədimdən türk tayfalarının məskəni olmuşdur. Bu da özünü toponimlərdə, xüsusən də hidronimlərdə göstərir. Hidronimlər özündə hər hansı etnos barədə informasiyanı cəmləşdirir, nominasiya prinsiplərini əks etdirir, etnosun yayılma areallarını müəyyənləşdirir.

**Ağvan** – Şuşa rayonu ərazisində çay. Yerli əhalinin dilində Alvançay variantında işlənir. Keçmişdə Malıbəyli kəndi ərazisində Ağvan adlı yaşayış məntəqəsi də olmuşdur. "Etnotoponimdir. Ağvanlar Azərbaycanın qədim türk mənşəli tayfalarından biri olmuşdur" [Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: 2007, I c., s.25];

**Qarqar çayı** - o öz adını qədim Qafqaz Albaniyasının qarqar tayfasının adından almışdır [Tapdıqoğlu: 2003, s.100]. Çayın adı ilk dəfə XIII əsrə aid mənbələrdə çəkilir. V əsrə aid mənbələrdə Albaniyada qarqarların üç əsr yaşadıqları qeyd olunur;

**İmanqulular** – Şuşa rayonu ərazisində bulaq. Ərazidə imanqulular nəsli məskunlaşmışdır. Onların adı ilə yaşayış məntəqəsi və meşə də var [Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2007: I c., s.258];

**Xəlfəli çayı** – Şuşa və Xocalı rayonları ərazisində, Qarqar çayının qolu olan çay. Xəlfəli kəndinin adı ilə əlaqədardır. Xəlfəli hidronimi xəlfəli tayfasının adından götürülmüşdür [Tapdıqoğlu: 2003, s.80].

**Kərgicahan cayı** – etnohidronimdir. Eyniadlı kəndin yaxınlığından axdığına görə, belə adlanmışdır. A.Qarabağlı hidronimin etimologiyasını Qarqar etnonimindəki izahla - "qırğı ər" tayfasınm məkanı anlamı ilə bağlayır [Bax: Qarabağlı: 2008, s.366].

**7)Tərkibində mifonimlər olan hidronimlər:**

**Əjdaha bulağı** – Şuşa rayonunda qeydə alınan Əjdaha bulağı və onun yerləşdiyi ərazi əjdahaya oxşadığı üçün belə adlanmışdır [Tapdıqoğlu: 2003, s.68].

**8)Apelyativlərdən düzələn hidronimlər:**

**Novlu bulaq** – Şuşa rayonunda, Malıbəyli kəndində qeydə alınan bulaq [Tapdıqoğlu: 2003, s.124]. Xurşidbanu Natəvanın maliyyə dəstəyi ilə çəkilmişdir. "Nov" sözü bir çox yerlərdə toponimlərin tərkibində rast gəlinir. Ayrı-ayrı toponimlərdə "dağ yamacından aşağıya enən və çox da dərin olmayan dərə"; "su yolu olan bulaq" və s. mənalarda işlənir.

**Dəyirman arxı** – Şuşa rayonunun Malıbəyli kəndi ərazisindədir. Toponim "dəyirman olan arx" mənasındadır [Tapdıqoğlu: 2003, s.62-63]

**Sevgili bulağı** – sevgililərin istək, görüş, arzu, məhəbbət bulağı sayılırdı [Tapdıqoğlu: 2003, s.132].

**Nəticə**

Beləliklə, Qarabağın hidronimiyası mürəkkəb və mütəşəkkil sistemdir, obyektiv gerçəkliyin spesifik xüsusiyyətlərini göstərir. Xalqın sosial-iqtisadi, mənəvi həyatının ayrı-ayrı mərhələlərini, dilini, etnogenezini dəqiqləşdirir.

Hidronimlərin tədqiqi tarixi mənbələrin qeydə almadığı qədim adların bərpasına imkan verir. Hidronimlər dilin başqa sözləri kimi xüsusiyyətlərə malikdir. Nümunələr göstərdi ki, Azərbaycan toponimlər sistemində hidronimlərin coğrafi nomensiz, sadə formada işlənməsi çox geniş yayılmamışdır. Onlarda buraxılmış coğrafi nomenlərin bərpası əksər hallarda həmin adların düzgün dərk olunmasına kömək edir. Elə buna görədir ki, coğrafi nomenli, mürəkkəb formada olan hidronimlərə daha çox rast gəlinir. Hidronimlərin tərkibində göl, çay, su, bulaq, arx və s. kimi sözlər də işlənir. Amma "bulaq" sözü digərlərinə nisbətən daha işləkdir və çox hidronimdə təsadüf olunur.

Şuşa hidronimiyasının xarakterik cəhəti budur ki, şəhərin məhəllələri öz bulaqları ilə tanınırdı. Şuşa hidronimlərinin semantik təsnifində fiziki-coğrafi xüsusiyyətlər və digər onomastik vahidlər özünəməxsus yer tutur.

Ümumiyyətlə, hidronimlər sistemində qədim dövrlərin etnik, miqrasiya prosesləri, tarixi hadisələr, təsərrüfat qaydası, şəxs adları, ərazinin coğrafi şəraiti, flora və faunanın indiki və keçmiş vəziyyəti əks olunur. Buna görə də hidronimiyanın öyrənilməsi və təsviri tarixin, etnik mədəniyyətin aktuallığını və elmi əhəmiyyətini artırır.

Bu mövzunun araşdırılması aşağıdakı məsələlərin həllinə kömək edə bilər: Qarabağ hidronimiyasının ümumi mənzərəsini vermək; ərazi hidronimlərinin sistemləşdirilməsi; hidronimlərin leksik-semantik təhlili; hidronimlərin dil mənsubluğunun təyin edilməsi; bu adların struktur-sözyaratma xarakteristikasının verilməsi. Yekun olaraq qeyd edə bilərik ki, Qarabağ hidronimləri Azərbaycan toponimik sisteminin bir hissəsi kimi türk onomastikası üçün zəngin mənbə təşkil edir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, Bakı, 2007, I c., 304 s.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, Bakı, 2007, II c., 304 s.
3. Əhmədov T. Azərbaycan toponimikasının əsasları, Bakı, 1991, 312 s.

4. https://az.wikipedia.org/wiki/Qotur_bula%C4%9F%C4%B1_(%C5%9Eu%C5%9Fa
5. https://web.archive.org/web/20220105111208/https://portal.azertag.az/az/node/20268
6. İslamov M. Tərkibində bulaq sözü olan bəzi toponimlər haqqında / Azərbaycan onomastikası problemləri, 1990, s. 92-93
7. İsmayılova A. Dağlıq Qarabağ toponimlərinin tədqiqi (Azərbaycan Respublikası). Dissertasiya. Bakı, 1995
8. Qarabağlı A. Qarabağ, onun qədim tayfaları və toponimləri, Bakı, 2008, 480 s.
9.Tapdıqoğlu N. Qarabağın tacı Şuşam, Bakı, 2003. 264 s.
http://web2.anl.az:81/read/page.php?bibid=2353&pno=19
10. Şuşanın bulaqları da bir tarixdir https://aqreqator.az/az/siyaset/1307040
11.Şuşanın bulaqları və müalicəvi suları
https://web.archive.org/web/20220105111208/https://portal.azertag.az/az/node/20268

**Reyhan HABIBLI**

**PECULIARITIES OF THE NOMINATION OF HYDRONYMS OF KARABAKH**
**(based on the hydronyms of Shusha)**
**SUMMARY**

The article deals with the hydronyms of Karabakh. The main goal is to determine the principles for nominating water bodies. The material of the research shows that the analysis of hydronyms makes it possible to study natural geographical landscape and national-ethnographic features of the territory. It turns out that lifestyle, worldview, activities, occupation of the population, features of the flora and fauna of the territory are reflected in the hydronyms of Karabakh. It is emphasized that all physical and geographical features of water bodies (velocity currents, color, taste, smell of water, nature of the river source, vegetable coastal cover, birds, fish living in the river basin, etc.) are reflected in the names. The conducted research represents a general panorama of the hydronymy of Karabakh, in particular Shusha, and lexical-semantic analysis of hydronyms. The results obtained will help further in-depth study of structural and word-formation characteristics of hydronyms of Karabakh.

**Keywords:** *toponymy, hydronymy, hydronym, Karabakh, Shusha, toponymic system of Azerbaijan.*

**Рейхан ГАБИБЛИ**

**ОСОБЕННОСТИ НОМИНАЦИИ ГИДРОНИМОВ КАРАБАХА**
**(на основе гидронимов Шуши)**
**РЕЗЮМЕ**

В статье речь идет о гидронимах Карабаха. Основная цель - определение принципов номинации водных объектов. Материал исследования показывает, что анализ гидронимов позволяет изучить естественный-географический ландшафт и национально-этнографические особенности территории. Выясняется, что в гидронимах Карабаха отражены образ жизни, мировоззрение, деятельность, род занятий населения, особенности флоры и фауны территории. Подчеркивается, что все физико- географические особенности водных объектов (скорость течения, цвет, вкус, запах воды, характер истока реки, растительный покров берегов, птицы, рыбы, обитающие в бассейне реки, и т.д.) отражены в названиях. Проведенное исследование представляет общую панораму гидронимии Карабаха, в частности, Шуши, лексико-семантический анализ гидронимов. Полученные результаты в дальнейшем помогут более углубленному изучению структурно-словообразовательной характеристики гидронимов Карабаха.

**Ключевые слова:** *топонимика, гидронимия, гидроним, Карабах, Шуша, азербайджанская топонимическая система.*